YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 may
2026-cı il,
cümə axşamı
№ 083 (7150)
Qiymәti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Təzyiqlər heç bir nəticə vermədi...

## İlham Əliyev: O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir




Bax səh. 3

## Azərbaycan-Pakistan əlaqələri dostluğa, qardaşlığa söykənir

Bax səh. 2

## Bakı-Bratislava: siyasi əlaqələr yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ötən il Slovakiyaya rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri, o cümlədən Rixard Raşi ilə görüşünü məmnunluqla xatırladı.

Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxundu...

Bax səh. 2



## Təmənnasız hərbi yardımdan Şuşa Bəyannaməsinə...

Bax səh. 4

## WUF13-ün yeni yanaşması

Bir neçə gündən sonra Bakı şəhərində start götürəcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) innovativ yanaşmaları təşviq etmək məqsədilə təsis olunan Biznes və İnnovasiya Mərkəzinin proqramı ictimaiyyətə açıqlanıb. Mərkəz öz xüsusi proqramı vasitəsilə şəhərsalma prosesinin bütün mərhələlərini əhatə edən praktik həlləri, icra üsullarını və tərəfdaşlıq əlaqələrini ön plana çıxaracaq. WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu çərçivəsində qlobal mənzil böhranına cavab verən yanaşmaların inkişafına dəstək verəcək və əsas diqqəti innovasiya, investisiya və icra məsələlərinə yönəldəcək.

Biznes və İnnovasiya...

Bax səh. 4

## Ermənilərin sərhəd tanımayan urbisid, ekosid və kultursid əməlləri

Bax səh. 3

## Hörmüz böhranı kənd təsərrüfatına sarsıdıcı zərbə vurur

Bax səh. 5

## Yeni nəqliyyat modeli

Bax səh. 6

## Vücudunun məzarından qalxan ruh

Bax səh. 7



## Kiyev 13 ölkə ilə birgə koalisiya yaradır

Bax səh. 7



## İranın 5 şərti...

Bax səh. 6

# Bakı-Bratislava: siyasi əlaqələr yüksək səviyyədədir

## İlham Əliyev Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ötən il Slovakiyaya rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri, o cümlədən Rixard Raşi ilə görüşünü məmnunluqla xatırladı.

Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxundu.

Prezident İlham Əliyev Rixard Raşinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməsinin önəmini qeyd edərək bildirdi ki, bu, tərəfdaşlığımızın daha bir göstəricisidir.

Qəbula görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edən qonaq dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini dedi.

Rixard Raşi Azərbaycan Prezidentinə Slovakiyaya ilk rəsmi səfər etdiyinə görə minnətdarlığını bildirdi.

Dəfələrlə ölkəmizə səfər etdiyini məmnunluqla xatırlayan qonaq 2022-ci ildə Azərbaycana səfəri çərçivəsində Şuşada olduğunu dedi. O bildirdi ki, bu səfəri əsnasında da Qarabağa gedəcək, orada aparılan bərpa-quruculuq işləri, həmçinin Xankəndidə Qarabağ Universitetinin fəaliyyəti ilə tanış olacaq.

Rixard Raşi Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülhün gücləndirilməsi üçün ölkəmiz tərəfindən görülən tədbirlərdən danışdı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da daxil olmaqla ölkələrimiz arasında ticarət münasibətlərinin yaradıldığını dedi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu vurğulanaraq, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edildi.

Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında iştirakına toxunularaq, bunun Azərbaycan-Slovakiya dostluğunun göstəricisi olduğu vurğulandı.

Görüşdə beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əməkdaşlıq müzakirə olundu, iqtisadi-ticari, enerji, müdafiə sənayesi, təhsil, humanitar, müasir texnologiyalar, mədəniyyət, idman, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Tezliklə Bakı ilə Bratislava arasında birbaşa uçuşların həyata keçiriləcəyi bildirilərək, bunun turizm və insanlararası təmasların genişlənməsinə töhfə verəcəyi qeyd olundu.

# Azərbaycan-Pakistan əlaqələri dostluğa, qardaşlığa söykənir

## İki ölkə arasında mühüm siyasi dialoq və iqtisadi münasibətlər mövcuddur



Azərbaycanın ən yaxın strateji müttəfiqlərindən sayılan Pakistan ilə münasibətlərimiz dostluq, qardaşlıq, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub, uğurla da davam etdirilir. Dövlət münasibətlərinin yüksələn xətlə inkişafında qətiyyətli siyasi iradə nümayiş etdirilir - ən çətin, ən ağır günlərdə dövlətlər hər zaman biri-birinin yanında yer alıb. Ümumiyyətlə, Azərbaycanın yürütdüyü çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu dostluq və əməkdaşlığı əsas hədəf kimi müəyyənləşdirir. Uğurla yürüdülən ikitərəfli münasibətlər isə dinamikliyi, yüksək səviyyəsi və dialoq mühitində inkişaf etməsi ilə seçilir - bu mənada da Azərbaycan ilə Pakistan arasındakı münasibətlərin yaxın dostluq və qardaşlıq münasibətlərinə, strateji əlaqələrə əsaslanması təbiidir. Təsadüfi deyil ki, iki dövlət arasında bir sıra istiqamətlər üzrə mühüm dialoq, əməkdaşlıq qurulub. Dövlət müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri olan Pakistan İslam Respublikası ötən 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, Ermənistanın işğalçı, təcavüzkar mövqeyi səbəbindən bu ölkə ilə siyasi əlaqələr qurmayıb. Hər iki dövlət beynəlxalq səviyədə qarşılıqlı olaraq bir-birini dəstəkləyir. İqtisadi sferada intensiv şəkildə addımlar atılır, əlaqələrin daha da möhkəmlənməsi, yüksək investisiya mühitindən səmərəli istifadə üçün işlər görülür.

**Hər zaman yan-yana...**

Ölkələr daim biri-birinin uğurlarına sevinir - yeri gəlmişkən, Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumu da rəsmi Pakistan tərəfindən böyük sevinc hissinə səbəb olub. Mayın 12-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Azərbaycan Prezidentinin X sosial media hesabında bildirilib ki, telefon danışığı zamanı liderlər Azərbaycan ilə Pakistan arasındakı qardaşlıq və strateji münasibətləri bir daha təsdiqləyib, energetika, ticarət və xalqlararası təmaslar da daxil olmaqla, əsas sahələr üzrə əməkdaşlığın davamlı olaraq genişlənməsini məmnunluqla qeyd ediblər. Baş nazir Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun sessiyasının əhəmiyyətini və Azərbaycanın qlobal şəhərsalma gündəliyinin irəli aparılmasında ev sahibi kimi rolunu vurğulayıb. Prezident İlham Əliyev foruma göstərilən diqqətə görə minnətdarlığını bildirib və tədbirin şəhərsalma gündəliyi üçün aparıcı beynəlxalq platforma kimi əhəmiyyətini qeyd edib. Baş nazir Şahbaz Şərif vacib işlərlə əlaqədar tədbirdə iştirak edə bilməyəcəyini, lakin Pakistanın sessiyada yüksək səviyyədə təmsil olunacağını deyib.

**Sülhpərvər ölkələr...**

Tərəflər, həmçinin regional proseslər, xüsusilə Yaxın Şərqdəki vəziyyət barədə fikir mübadiləsi aparıblar. Prezident İlham Əliyev Pakistanın fəal vasitəçilik rolunu, tərəflər arasında atəşkəsin təmin edilməsi və gərginliyin azaldılması istiqamətindəki uğurlu təşəbbüslərini yüksək qiymətləndirərək, bunun ölkə rəhbərliyinə olan güclü beynəlxalq etimadın göstəricisi olduğunu qeyd edib.

Günümüzün reallığında siyasi-hərbi proseslərin inkişafı göz önündədir. Açıq etiraf olunmalıdır ki, beynəlxalq statuslu, hətta sülhyaratma missiyalı beynəlxalq təşkilatlar belə bir çox hallarda sabitliyi formalaşdırmaqda çətinlik çəkir, hətta bunu bacarmır. Azərbaycanın və Pakistanın timsalında isə sülhyaratma missiyalarının, vasitəlik rolunun effektivliyi ön plana çıxır. 30 ilə yaxın BMT TŞ kimi qüdrətli bir qurumun qəbul etdiyi, dünyanın aparıcı dövlətlərinin altına imza atdığı qətnamələr icra edilmədi və nəticədə Azərbaycan öz gücü və səyi ilə ədaləti bərpa etdi. Eləcə də, ən çətin anlarda Türkiyə və Pakistan ən çıxılmaz situasiyalarda barışmaz tərəflər arasında təmasın formalaşdırılmasında uğurlu fəaliyyət ortaya qoyur. Pakistanın Yaxın Şərq konfliktinin başa çatması istiqamətində səyləri bu mənada xüsusi vurğulanmalıdır. İslamabad bu il fevralın sonundan başlayan müharibənin başa çatması üçün tərəflər arasında əlaqə yaratdı, hər iki tərəf məhz İslamabadda masa arxasında danışıqlar apardı. Proses bu gün də davam edir. Məhz Pakistanın moderatorluğu ilə tərəflər öz təklif və sülh düşüncələrini, baxışlarını qarşı tərəfə təqdim edirlər.


← Post
Ilham Aliyev
@presidentaz

Prime Minister of the Islamic Republic of Pakistan Muhammad Shehbaz Sharif (@CMShehbaz) called President Ilham Aliyev.

During the telephone conversation the leaders reaffirmed the brotherly and strategic ties between Azerbaijan and Pakistan, welcoming the steady expansion of cooperation across key sectors including in energy, trade and people to people contacts.

The Prime Minister underscored the importance of the upcoming World Urban Forum in Baku, noting Azerbaijan's role as host in advancing the global urban agenda. President Aliyev expressed appreciation for the attention to the Forum and emphasized its significance as a leading international platform for urban agenda. Prime Minister Shehbaz Sharif noted that, due to pressing commitments would not able to attend the event, but he had ensured that Pakistan would be well-represented at the Forum.

They exchanged views on regional developments, with particular focus on the Middle East. President Aliyev deeply appreciated Pakistan's active mediation role and its successful initiatives to ensure a ceasefire between the parties, its efforts of de-escalation, noting it reflects strong international confidence in the country's leadership.

The leaders agreed to remain in close contact. The Prime Minister extended an invitation to visit Pakistan, which President Aliyev accepted with appreciation.



Həm Azərbaycan, həm də Pakistan mühüm bir coğrafiyada əsas sülhyaratma mərkəzi kimi bir çox konfrantasiyaların həlli prosesinin "masa arxasına" transferində vacib rol oynayıb, beynəlxalq ictimaiyyət üçün etimad ünvanı olduğunu sübuta yetirib.

**Qarşılıqlı səfərlər...**

Telefon danışığı zamanı liderlər sıx təmasda olmaq barədə razılığa gəliblər. Baş nazir Prezident İlham Əliyevi Pakistana səfərə dəvət edib. Dövlətimizin başçısı dəvəti məmnuniyyətlə qəbul edib.

İki ölkə arasında yüksəksəviyyəli dialoqun hökm sürməsində ən mühüm predmetlərdən biri də qarşılıqlı səfərlər, intensiv görüşlərdir. Vurğulandığı kimi, Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olan Pakistanın səfirliyi Bakıda 12 mart 1993-cü ildə, Azərbaycanın İslamabadda səfirliyi 24 avqust 1997-ci ildə təsis edilib. Dövlət başçıları səviyyəsində ilk səfər isə 1995-ci il 9-11 oktyabrda reallaşıb - Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faruq Əhməd Xan Leqari Azərbaycana rəsmi səfər edib. 1996-cı ilin aprelində Azərbaycan Prezidenti Heydər Əliyev Pakistana rəsmi səfər edib.

2005-ci ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev Pakistana rəsmi, 2012-ci il 13-16 oktyabrında isə Pakistan Prezidenti Asif Əli Zərdari Azərbaycana işgüzar səfər edib. 2024-cü ilin iyulunda Prezident İlham Əliyev Pakistana dövlət səfəri edib.

Pakistanın hökumət rəhbərləri arasında hazırkı Baş nazir Məhəmməd Şahbaz Şərifin Bakıya səfərləri isə daha intensiv xarakter daşıyıb. O, 2023-cü ilin iyununda, 2024-cü ilin noyabrında, 2025-ci ilin fevralında, mayında və iyulunda Azərbaycana səfərə gəlib. Bu səfərlər çərçivəsində iki ölkə arasında münasibətlərin daha da genişləndirilməsi və əlaqələrin gücləndirilməsi yönündə mühüm müzakirələr aparılıb.

**P.İSMAYILOV**

# İlham Əliyev: O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir




## Təzyiqlər heç bir nəticə vermədi...

1990-cı illərin əvvəlində Ermənistanın Azərbaycana qarşı təcavüzü, 20 faizdən artıq ərazilərimizin işğal olunması həm də beynəlxalq hüququn pozulması faktı idi. Qlobal dünyanın bir parçası olan Azərbaycana qarşı edilmiş bu cinayət faktı həmin dövrdə demək olar ki, bütün dünya tərəfindən susqunluqla qarşılanırdı. Beynəlxalq təşkilatlar sadəcə bəyanat verməklə işlərini bitmiş sayır, bu bəyanatların icrasına diqqət yetirmirdilər. Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu da bu məsələdə beynəlxalq vasitəçilik missiyasını yerinə yetirməli olsa belə, fəaliyyəti ciddi suallar doğururdu. ABŞ, Rusiya və Fransanın həmsədrlik etdiyi bu format kağız üzərində münaqişənin sülh yolu ilə tənzimlənməsinə xidmət etsə də, praktiki baxımdan status-kvonun qorunmasına şərait yaradır, hətta bəzi məqamlarda işğalçı ölkəyə dəstək belə göstərirdilər. İşğal altında olan Azərbaycan torpaqları ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilmədi, Ermənistanın destruktiv siyasətinə qarşı konkret təzyiq mexanizmləri tətbiq olunmadı - halbuki hər 3 dövlət BMT TŞ-nın daimi üzvü idilər.

### Daha çox maneəyə çevrildi...

Xatırladaq ki, SSRİ-nin dağılması ilə müstəqillik əldə edən Ermənistan və Azərbaycan 30 yanvar 1992-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM 1995-ci ildən etibarən Avropada Təhlükəsizlik və əməkdaşlıq Təşkilatı və ya ATƏT adlandı) işinə qoşulublar. Qrupun tarixi ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 24 mart 1992-ci il tarixlində Helsinkidə keçirilmiş görüşündən başlayır. Həmin görüşdə regiondakı vəziyyət müzakirə olunmuş, ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdi. Minsk Qrupunun əsası isə 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı qoyuldu. Həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinə dair Budapeşt sammitinin işinin konkret yekunu olaraq "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qərar qəbul olunub. Budapeşt Sammitinin nəticələrinə əsasən, 20 dekabr 1994-cü ildə Vyanada Ermənistan-Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olunub. 28 avqust 1995-ci ildə isə ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının müzakirəsində olan münaqişə üzrə Şəxsi Nümayəndəsi (ŞN) vəzifəsi təsis olunub. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk prosesinə həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər.

Minsk qrupunun fəaliyyəti illər boyu daha çox bəyanatlar, nəticəsiz görüşlər və diplomatik imitasiya ilə yadda qaldı. Vasitəçilər balanslı mövqe nümayiş etdirmək adı altında işğalçı ilə işğala məruz qalan tərəf arasında süni bərabərlik yaratmağa çalışdılar. Bu isə beynəlxalq hüququn fundamental prinsiplərinə zidd idi. Münaqişənin həlli istiqamətində real irəliləyiş əldə olunmaması regionda gərginliyin davam etməsinə, humanitar problemlərin dərinləşməsinə və yüz minlərlə məcburi köçkünün öz doğma yurdlarına qayıda bilməməsinə səbəb oldu.




### Vasitəçilər belə təzyiq edirdilər...

2020-ci ilin Vətən müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi və bununla həm də Minsk qrupunun illərlə nəticə verməyən fəaliyyəti faktiki olaraq iflasa uğradı. Həmin dövrdə həm beynəlxalq hüququn bərpası, həm BMT TŞ-nın məlum qətnamələrinin icrası, həm də ədalətin təntənəsi uğrunda mübarizə aparan Azərbaycana qarşı təzyiqlər belə edilirdi. Maraqlıdır ki, təzyiq göstərən güclər arasında adıçəkilən ATƏT-in Minsk qrupunun üzvləri də yer alırdı. Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirib ki, İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi: "Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər".

### Beynəlxalq hüquqa qarşı hörmətsizlik...

Bu proses bir daha göstərdi ki, beynəlxalq vasitəçilik mexanizmi effektiv siyasi iradə və konkret nəticəyə hesablanmış yanaşma olmadan yalnız formal platformaya çevrilə bilər. ATƏT-in Minsk qrupu da nəinki öz işinin öhdəsindən gəlmədi, əksinə, hətta müəyyən dövrlərdə həll prosesinə əngəl, status-kvonun davam etməsinə şərait yaratdı. Ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə yüzlərlə, bəlkə də minlərlə səfərləri gözdən pərdə asmağa xidmət etdi, problemin həllində iştirak isə ümumiyyətlə nəzərə çarpmadı. İllər boyu yalnız turistik səfərləri ilə yadda qalan, vasitəçi olsa belə, Ermənistanın maraqlarının açıq müdafiəçisinə çevrilən, hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoymağa çalışan ATƏT-in Minsk qrupu hüquqları pozulan azərbaycanlıları görməzdən gəldi. Aparılan danışıqlarda Ermənistana təzyiq göstərməyi, etdiyi cinayətlərə görə bu ölkədən hesab tələb etməyi yada belə salmayan Minsk qrupunun fəaliyyətsizliyi isə həm də beynəlxalq hüquqa qarşı qurumun hörmətsizliyi idi.

**P.İSMAYILOV**

## Ermənilərin sərhəd tanımayan urbisid, ekosid və kultursid əməlləri

Beynəlxalq konvensiyalara görə, şəhər və kəndlərin dağıdılması, mülki infrastruktura, tarixi mədəniyyət abidələrinə ziyan vurulması ağır müharibə cinayətləri sayılır. Azərbaycan da otuz illik işğal dövründə ermənilərin törətdikləri saysız-hesabsız belə müharibə cinayətləri ilə üzləşib. Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdə çəkilən foto və video materiallar ermənilərin özləri barədə uydurduqları "mədəni xalq" mifini tamam alt-üst edir. Həmin görüntülərdən bir daha aydın olur ki, ermənilər mədəniyyət görməyən vəhşi tayfalar kimi yolları üstündə hər şeyi dağıdıb talayıblar. Prezident İlham Əliyev bu günlərdə işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə, eləcə də Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşlərdəki çıxışlarında işğal illərində ermənilərin Azərbaycan ərazilərində törətdikləri vandalizm əməllərinə xüsusi diqqət çəkib.



**Şəhər və kəndlərin üzləşdiyi ağır urbisid siyasətinin kədərli izləri**

Otuz illik işğal dövründə məqsədli şəkildə viran qoyulan şəhər və kəndlərimizin siyahısı çox uzundur. Bu siyahıda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan eyni zamanda Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, onları əsl urbisid (şəhərlərə qarşı genosid) və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib.

Ağır urbisid siyasətinin kədərli izlərinin qaldığı şəhərlərimizdən biridə Ağdamdır. Ağdam şəhəri 23 iyul 1993-cü il tarixindən başlayan işğaldan əvvəl bütün bölgənin ticarət mərkəzi sayılırdı. İşğaldan sonra isə ağ şəhərin qara günləri başlayıb. Erməni vandalizminin bütün cəhətlərini Ağdamın timsalında görmək mümkündür. İkinci Qarabağ müharibəsi bitəndən sonra məlum oldu ki, şəhərdən əsər-əlamət yoxdur, burada bir bina da salamat qalmayıb. Göz işlədikcə uzanıb gedən ərazilərdə yalnız Cümə məscidinin qalıqlarını görmək mümkün idi. Düşmən məscidin qalıqlarını artilleriya atəşlərinin tənzimlənməsi üçün saxlayıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırıblar.

İşğal illərində Zəngilan və Cəbrayıl şəhərləri də oxşar aqibətlə üzləşib. 1993-cü il 29 oktyabr tarixində işğal olunmazdan əvvəl bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 34 ümumtəhsil məktəbi, texniki peşə və musiqi məktəbləri, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu fəaliyyət göstərirdi. 27 illik işğal dövründə mənfur düşmən digər yaşayış məntəqələrimizdə olduğu kimi, Zəngilanda da bütün abidələri, evləri, mülki infrastrukturu dağıdıb, sərvətlərimizi vəhşicəsinə talan edib.

Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi VIII əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhər də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi.

Cəbrayıl rayonu 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalıb. İşğal nəticəsində rayonun 1 şəhəri, 4 qəsəbəsi, 92 kəndi erməni quldurları tərəfindən talan edilərək yandırılıb. Prezident İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdəki çıxışında işğal illərində yaşayış məntəqələrimizə münasibətdə həyata keçirilən urbisid siyasətini kəskin şəkildə qınayaraq vurğulayıb: "Cəbrayıl tamamilə yerlə-yeksan edilmişdir, nə şəhərdə, nə də ki, kəndlərdə bir dənə də salamat bina qalmamışdı, Ağdam kimi. Zəngilanda tək-tük ev qalmışdı, orada qanunsuz məskunlaşma da aparırdılar. Amma Füzuli, Ağdam, Cəbrayıl tamamilə dağıdılmışdır".

**Təbii sərvətlər talanır, tarixi mədəni-dini abidələr hədəfə çevrilirdi**

Torpaqlarımızın işğal altında olduğu dövrdə ermənilərin törətdikləri ekosid və kultursid əməllərin də sərhədi olmayıb. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektlərini xüsusi qəddarlıqla məhv ediblər. Onlar havadarlarının dəstəyi ilə ələ keçirdikləri ərazilərimizdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub.

Eyni zamanda, işğal olunmuş ərazilərimizdə 67 məscid, 144 məbəd, 192 ziyarətgah məhv edilib. O cümlədən mədəniyyətimizin beşiyi sayılan Şuşada Hacı Yusifli məscidi, "Çöl Qala" məscidi, "Yuxarı Gövhər Ağa", "Aşağı Gövhər Ağa", "Saatlı məscidi" (XVIII əsr), Mədrəsə (XVIII əsr), Yuxarı məscid mədrəsəsi (XVIII əsr), Qız monastırı (XVIII-XIX əsrlər), Qazançı kilsəsi (XIX əsr), eləcə də Natəvanın evi (XVIII əsr), ikimərtəbəli karvansaray (XIX əsr), Mehmandarovların malikanə kompleksi: məscid, kiçik yaşayış evi, böyük yaşayış evi (XVIII əsr), İsa bulağı (XIX əsr), İbrahim xanın qəsri (XVIII əsr), M.P.Vaqifin məqbərəsi (XX əsr) və s. tarixi memarlıq abidələri darmadağın edilib.

Ermənilər tərəfindən törədilən ekosid siyasətinin də miqyası çox böyükdür. Belə ki, onların vandalizm əməlləri Prezident İlham Əliyevin də xatırlatdığı kimi, məşhur Çinar meşələrindən, Bəsitçay Dövlət Təbiət Qoruğundan da yan ötməyib. Buradakı qiymətli ağaclar qırılaraq Ermənistana daşınıb və mebel sənayesində istifadə olunub. Üç onillik ərzində işğal altında qalan ərazilərimizdəki bu dağıntıları bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özlərinə dövlət quran, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. "Yəni bu, onlarda bir qayda idi, bu, normal bir davranış idi. Yəni vəhşilik normal bir davranış idi - kim nə qədər çox daş oğurladı, kim nə qədər çərçivə çıxartdı, kim nə qədər dam örtüyü çıxartdı. Sonra aparıb həm İran bazarlarında, həm də Ermənistan bazarlarında satırdılar. Bax, fərq budur. Biz bunu edə bilərik? Bizim insanların heç ağlına gəlməz belə", - deyə Prezident İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşdəki çıxışında vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Təmənnasız hərbi yardımdan Şuşa Bəyannaməsinə...

## 24 il əvvəl, bu gün Azərbaycanla Türkiyə arasında təmənnasız hərbi yardım haqqında müqavilə imzalanıb

Azərbaycan - Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Dünyada bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan hansısa digər dövlətlərin adını çəkmək mümkün deyil. İki qardaş ölkə tarixdən gələn və dil, din, mənəviyyat eyniliyinə söykənən ənənələrinə böyük önəm verirlər və bu yaxınlığı daim qoruyub saxlamağa, daha da möhkəmləndirməyə çalışırlar.

Azərbaycanla Türkiyənin müxtəlif istiqamətləri əhatə edən münasibətlərində hərbi sahədə əməkdaşlıq xüsusi yer tutur. İki ölkənin hərbi sahədə əməkdaşlığı müxtəlif sənədlərlə təsbit olunub. Qardaş dövlətlərin bu istiqamətdəki əməkdaşlığını özündə ehtiva edən sənədlərdən biri isə 2002-ci il mayın 14-də imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə”dir. O dövrdə - Prezident Heydər Əliyev 24 avqust 2002-ci il tarixində həmin sənədin təsdiqlənməsi barədə Sərəncam imzalayıb.

### 5 maddədən ibarət sənəd...

Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın tarixi faktlarla zəngindir. Bu siyahıda ötən yüzilliyin əvvəllərində Türkiyə hərbçilərinin köməyi ilə Bakının erməni-bolşevik işğalından azad edilməsini xüsusi qeyd edə bilərik. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan olunan vaxtda Bakı erməni-bolşevik birləşmələrinin nəzarətində idi. Belə çətin dönəmdə AXC-nin köməyinə Qafqaz İslam Ordusu çatdı. Digər ərazilərimizin erməni-daşnak birləşmələrindən təmizlənməsindən sonra Qafqaz İslam Ordusunun dəstəyi ilə sentyabrın 15-də Bakı işğalçılardan azad olundu.

Tarixdən gələn bu ənənə “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə” ilə daha da möhkəmləndirildi. Əvvəlki illərdə qazanılan təcrübəyə istinad edilməklə imzalanan bu sənəddə iki dost ölkə arasında hərbi əməkdaşlığı daha da möhkəmləndirmək və Azərbaycanın Silahlı Qüvvələrinin yenidən qurulması işinə yardım etmək məqsədi daşıyırdı. Həmin dövrdə belə bir müqavilənin imzalanması Azərbaycan üçün bir növ zərurət idi. Müstəqilliyinin yaşı az olan respublikamız müharibəyə cəlb olunmuşdu. Ermənistan havadarlarının böyük dəstəyi ilə torpaqlarımızın 20 faizini öz nəzarəti altına almışdı və işğal məhsulu olan keçmiş status-kvonu hər vəchlə sonsuzluğa qədər uzatmağa çalışırdı. Belə çətin dönəmdə Azərbaycanın Silahlı Qüvvələrinin möhkəmləndirilməsinə, döyüş qabiliyyətinin yüksəldilməsinə və texniki təchizatının gücləndirilməsinə böyük ehtiyac var idi. Bu ehtiyacı qarşılamağa yenə də qardaş Türkiyə gəldi. Sözügedən müqavilənin birinci bəndində Türkiyə Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə 3.786.140.000.000 (üç trilyon yeddi yüz səksən altı milyard yüz qırx milyon) Türkiyə lirəsinə bərabər ABŞ dolları məbləğində təmənnasız yardım edəcəyi nəzərdə tutulurdu. İndiyədək icrası yüksək səviyyədə təmin olunan beş maddədən ibarət sənədə əsasən qardaş dövlət tərəfindən Silahlı Qüvvələrimizin avadanlıq və xidmət təchizatına əhəmiyyətli dərəcədə kömək göstərilib.



### Qardaş ölkələrin hərbi əməkdaşlığının mahiyyəti

İki qardaş ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsi heç bir halda üçüncü ölkələrə qarşı yönəlməyib. Ancaq öz təhlükəsizliklərini təmin etmək üçün ordularını möhkəmlətmək də onların haqqıdır. Hazırda dünyada elə bir vəziyyət yaranıb ki, beynəlxalq hüquq və prinsiplər bir çox hallarda işləmir. Buna görə də ölkələr öz suverenliyini daxili gücü və müttəfiqlərinin dəstəyi ilə qorumaq məcburiyyətindədirlər. Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığı isə həm bu ölkələrin özləri, həm də bütövlükdə region üçün mühüm aktuallıq daşıyır. Hər iki ölkə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında maraqlıdır.

Azərbaycanla Türkiyənin hərbi sahədə əməkdaşlığının məzmunu kifayət qədər genişdir. İlk növbədə onu qeyd edək ki, NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə öz dəstəyini göstərir. Hazırda Türkiyə modelinə istinad edilməklə Azərbaycan Ordusunun yeni strukturu formalaşdırılıb, o cümlədən də komando birlikləri yaradılıb. Ölkəmizin Türkiyə ilə hərbi təhsil sahəsində əməkdaşlığının önəmini xüsusi qeyd edə bilərik. 1996-cı ildə imzalanmış “Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması” çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində yaxşı nəticələr qazanıblar. İndiyədək minlərlə azərbaycanlı gənc qardaş ölkənin Silahlı Qüvvələrində təcrübə keçiblər, bir sıra nadir ixtisaslara yiyələniblər və müxtəlif növ müasir silahların sirlərini öyrəniblər. Silahlı Qüvvələrimizin yenidən təşkilinə kömək məqsədilə hər il müəyyən kvotalar daxilində azərbaycanlı hərbi qulluqçular Türkiyədə təhsil almağa göndərilir. Təcrübə mübadiləsi baxımından Azərbaycandan və Türkiyədən olan hərbçilərin birgə təlimlərə cəlb olunmaları da çox əhəmiyyətlidir.

İki ölkə arasında müdafiə sənayesi sahəsində də yüksək səviyyəli əməkdaşlıq qurulub. Müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməldə həyata keçirilməsini təmin etmək məqsədilə indiyədək bir sıra sənədlər imzalanıb. Türkiyə hərbi texnika istehsalında böyük uğurlara imza atıb. Eyni zamanda, Azərbaycan da özünün müdafiə sənayesini inkişaf etdirir. Artıq ordumuzun müxtəlif döyüş sursatları ilə təminatının xeyli hissəsi məhz daxili istehsal hesabına həyata keçirilir. Qardaş ölkə ilə birgə müdafiə sənayesi müəssisələrinin qurulması perspektivləri böyükdür. Bir müddət əvvəl Azərbaycan Müdafiə Nazirliyi və Türkiyənin “Baykar” şirkəti arasında ölkəmizdə pilotsuz uçuş aparatlarının (PUA) birgə istehsalına dair sənəd imzalanıb. Xatırladaq ki, Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarının Vətən müharibəsində düşmənin hədəflərinin məhv edilməsində böyük rolu oldu. Türkiyə postmüharibə dövründə də regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir.

### Şuşa Bəyannaməsi bu müqavilənin məntiqi davamıdır

Hərbi əməkdaşlıq sahəsində uzun illər ərzində qazanılan təcrübə, eləcə də 2002-ci il mayın 14-də imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə” iki qardaş ölkəni 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasına apardı. Yəni, Şuşa Bəyannaməsi əslində, sözügedən sənədin məntiqi davamı hesab oluna bilər. Qars Müqaviləsindən 100 il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvəyə yüksəlib. Sənəddə iki ölkənin bundan sonrakı müttəfiqliyinin və işbirliyinin mühüm istiqamətləri öz əksini tapıb. Şuşa Bəyannaməsində beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətin uzlaşdırılması, siyasi, hərbi iqtisadi-ticarət əlaqələri, həmçinin mədəniyyət, təhsil, idman, gənclər siyasəti kimi sahələr əhatə olunub. Meydana çıxan yeni çağırışlar fonunda hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsi, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsi Azərbaycanın və Türkiyənin regional və beynəlxalq müstəvidə rolunun, çəkisinin artmasına müsbət təsir göstərir. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

Bəhs olunan sənəddə Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsi sayəsində regionda yaranan yeni reallıqlar nəzərə alınıb. Bəyannamədə müharibədən sonrakı mərhələdə Qafqaz regionunda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi-nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi vurğulanır.

*Nardar BAYRAMLI*

# WUF13-ün yeni yanaşması

## Biznes və İnnovasiya Mərkəzi investorlar və texnologiya şirkətləri arasında işgüzar əlaqə yaradır

Bir neçə gündən sonra Bakı şəhərində start götürəcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) innovativ yanaşmaları təşviq etmək məqsədilə təsis olunan Biznes və İnnovasiya Mərkəzinin proqramı ictimaiyyətə açıqlanıb. Mərkəz öz xüsusi proqramı vasitəsilə şəhərsalma prosesinin bütün mərhələlərini əhatə edən praktik həlləri, icra üsullarını və tərəfdaşlıq əlaqələrini ön plana çıxaracaq. WUF13-ün “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusu çərçivəsində qlobal mənzil böhranına cavab verən yanaşmaların inkişafına dəstək verəcək və əsas diqqəti innovasiya, investisiya və icra məsələlərinə yönəldəcək.

**Şəhərsalma modellərinin təşviqində mühüm platforma**

Biznes və İnnovasiya Mərkəzinin əsas məqsədi mənzil təminatının real təcrübədə həyata keçirilməsi yollarını göstərmək və səmərəli əməkdaşlıq qurmaq, tikinti biznesi icması arasında əlaqələndirməni təmin edən çevik platforma yaratmaqdır. Bu məqsədlə proqram çərçivəsində innovativ mənzil təchizatı və əsas xidmətlər üzrə həll yollarının inkişafı ilə məşğul olan özəl sektor nümayəndələri və digər maraqlı tərəflər bir araya gələcək. Tərəflər müasir şəhərsalma modellərini birgə öyrənmək üçün təşviqedici niyyətlərini ictimaiyyətlə bölüşəcək.

Biznes və İnnovasiya Mərkəzi proqram ssenarisi üzrə şəhərsalmada dəyər zəncirinin praktik tətbiqinə dair 15 sessiya keçirməyi planlaşdırır. Sessiyalarda dayanıqlı şəhərsalma və layiqli mənzil təminatında tərəfdaşlar, şirkətlər və biznes assosiasiyalarının rolu, onlar tərəfindən həyata keçirilən real layihələr və təcrübələrin şəhərsalmanının inkişafına verdiyi töhfələr nümayiş olunacaq. Bununla da, Mərkəz iri şirkətlərdən tutmuş kiçik və orta biznes müəssisələri, startaplar və biznes assosiasiyaları arasında vahid əlaqələndirməni təmin etməklə, innovasiya, texnologiya və şəhərsalma ilə bağlı yeni yanaşmaları ictimaiyyətə təqdim edəcək. Bu isə şəhərlərin landşaftını müəyyən edən şirkət və investorlar, innovasiya təcrübəsini praktikaya çevirən mütəxəssis korpusu arasında mübadiləni təşviq edərək şəhərsalma üzrə dəyər zəncirinin yaranmasına töhfə verəcək.

**Startap layihələrinə dəstək**

Biznes və İnnovasiya Mərkəzində yeni yaradılmış şirkətlərin və gənc sahibkarların öz innovasiyalarını nümayiş etdirmələri üçün xüsusi məkan - Startap Pavilyonu da təqdim olunacaq. Dünya üzrə 10 ölkədən seçilmiş 14 startap layihəsinin iştirakı edəcəyi Pavilyonun məqsədi yeni biznes ideyalarını dəstəkləmək və mənzil təminatı, şəhərsalma problemlərinin həllində mütərəqqi startap layihələrini ön plana çıxarmaqdır.

Hazırda inkişaf etmiş dünya ölkələrində startaplar müasir şəhərsalma innovasiyalarının əsas hərəkətverici qüvvəsi kimi çıxış edir, texnologiyaların tətbiqini asanlaşdırır və şəhər mühitini daha ağıllı, davamlı və dayanıqlı infrastrukturlar üzərində qurur. Bu tip layihələr əsasən süni intellekt, robototexnika, nəqliyyat və digər sahələrdəki mürəkkəb problemləri həll etməklə şəhərlərin inkişafına töhfə verir. Şəhərsalma sahəsində innovativ startapların əsas istiqamətləri “ağıllı şəhər” idarəetməsi vasitəsilə şəhər infrastrukturunun, o cümlədən enerji və su təchizatının optimallaşdırılması, şəhərdaxili hərəkətin səmərəliliyini təmin edən yeni layihələrin hazırlanması, nəqliyyat infrastrukturunun yenidən qurulması, nəqliyyat xidmətlərinin rəqəmsallaşdırılması ilə bağlıdır. KOBİA tərəfindən dəstəklənən startap şəhadətnaməsi alan layihələr daha çox investorların diqqətini cəlb etməklə şəhər rəqəmsal ekosisteminin




inkişafına töhfə verir. Bu baxımdan, WUF13 tədbiri innovasiyalar və startaplar üçün də şəhərsalma ekosistemi quruculuğunda rolunu artırmış olacaq.

**“Yaşıl tikinti” texnologiyalarının tətbiqi**

Şəhərsalmada “yaşıl tikinti” layihələri də mühüm yer tutur və ekoloji cəhətdən təmiz və sağlam binalar tikmək üçün istifadə olunur. Bu cür layihələrdə ətraf mühitə təsirləri minimuma endirmək üçün material seçimi, enerji istifadəsi, suya qənaət və tullantıların idarə edilməsi kimi amillər diqqətlə planlaşdırılır. Bura, həmçinin binanın layihələndirildiyi yerin seçilməsi, tikintisi, istismarı, təmiri və hətta sökülməsi də aiddir. “Yaşıl tikinti”nin digər məqsədi binaların keyfiyyətinin qorunması və ya artırılması, onların daxili mühitində rahatlığın təmin edilməsidir. Bu tikinti növü klassik tikinti-layihə ənənələrini qənaətlilik, faydalılıq, uzunömürlülük və rahatlıq kimi anlayışlarla təkmilləşdirir.

Dünya ölkələrində davamlı olaraq “yaşıl tikinti” texnologiyaları daim təkmilləşir və onların əsas məqsədi tikilinin ətraf mühitə və insan sağlamlığına ümumi zərərini azaltmaqdır. Azərbaycanın “yaşıl həmrəylik” strategiyasına sadiqliyi, WUF13-ə ev sahibliyi edən məsuliyyətli ölkə kimi şəhərsalmada ətraf mühitin qorunması istiqamətində davamlı təşəbbüslər göstərməsi “yaşıl tikinti” seqmentinə keçidi üçün mühüm əsaslar yaradır.

**WUF13-ün vergi güzəştləri**

Şəhərsalma Forumunda biznes üçün xüsusi əhəmiyyət daşıyan sahələrdən biri də vergi güzəştlərinin tətbiqidir. Belə ki, WUF13-lə əlaqədar qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri cari ilin sentyabr ayına qədər vergi güzəşti ilə əhatə olunacaq. Belə ki, WUF13 çərçivəsində malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlər, qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müqavilə əsasında qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri vergilərdən azad olunacaq. Eləcə də, qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərin mənfəət vergisindən azad edilməsi, müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq təsdiqedici sənəd əsasında malların idxalının ƏDV-dən azad olunması nəzərdə tutulur.

Qeyd edilən fəaliyyət sahələrində çalışan sahibkarların Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına hazırlıq dövründə və tədbir müddətində göstərdikləri iş və xidmətlərdən əldə etdikləri gəlirlər vergidən azad olunmaqla, onların dövriyyə imkanlarını yaxşılaşdıracaq.

*E.CƏFƏRLİ*

# Hörmüz böhranı kənd təsərrüfatına sarsıdıcı zərbə vurur

Yaxın Şərqdəki hərbi gərginlik və Hörmüz boğazında yaranmış logistika problemləri kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün zəruri olan kimyəvi dərmanların, xammal resurslarının bahalaşmasına da səbəb olmaqdadır. Xüsusilə də, aqrar sektorda əsas tələbat mallarından biri olan gübrə və pestisidlərin tədarükündə ciddi problemlər yaşanmaqdadır. Hörmüz boğazının faktiki bağlanması gübrə və xammal ixracını dayandırıb. Bu marşrut vasitəsilə dünya üzrə kükürdün 44 faizi, karbamidin (azotlu gübrə) 31 faizi, ammonyakın 18 faizi və fosfatın 15 faizi daşınır. Körfəz ölkələri isə karbamid ixracının təxminən 45 faizini təmin edir. Qətərin dövlət enerji şirkəti "QatarEnergy" LNG obyektlərindəki vəziyyətlə əlaqədar qaz istehsalını dayandırdığını, qlobal tələbatın təxminən 14 faizini təmin edən karbamid zavodunun da müvəqqəti dayandırıldığını açıqlayıb. Bu fasilə domino effekti yaradaraq Hindistanda 3, Banqladeşdə isə 4 strateji gübrə zavodunun fəaliyyətinin dayanmasına səbəb olub.

**Rusiya ammonium ixracını dayandırıb**

Eləcə də əsas tədarükçülərdən biri olan Rusiya ammonium nitrat ixracını müvəqqəti dayandırıb və azotlu gübrələr üzrə əlavə məhdudiyyətlərin mümkünlüyünü açıqlayıb. Qlobal təklifin 28 faizini təmin edən Çin isə azot-kalium qarışıqları və bəzi fosfat gübrələrinin ixracını dayandırıb. Beynəlxalq Gübrə Assosiasiyasının məlumatına görə, bu ölkələr karbamid ticarətinin üçdə birindən, fosfat gübrələrinin isə beşdə birindən çoxunu təmin edir.

Təchizat zəncirində yaranmış qırılmalar nəticəsində son 2 ayda gübrənin bir tonunun qiyməti 1,5 dəfə bahalaşaraq 700 dollara çatıb. Bu faktorlar qlobal ərzaq təhlükəsizliyinə də ciddi təsirlər göstərir və 2026-cı ilin yaz aylarında dünyada ərzaq qiymətlərinin kəskin artımı üçün ilk siqnalları verir. Aqrar sənaye bazarı üzrə mütəxəssislər həyəcan təbili çalaraq bildirirlər ki, gübrə təminatı, məhsuldarlığın kəmiyyət və keyfiyyət göstəricilərini artırmaq üçün əkin sahələrinin ehtiyac duyduğu qida maddələrinin qarşılanmasında mühüm rol oynayır. Bu məhsulun çatışmazlığı istehsalı azaldaraq dünya ərzaq təhlükəsizliyi böhranına səbəb olur. Hadisələrin bu cür davam etməsi bir çox ölkələrdə kənd təsərrüfatı sektorunu tənəzzülə uğrada bilər.

**FAO xəbərdarlıq edir: "Sistematik ərzaq şok"u yaranıb**

"Bloomberg" agentliyi yaydığı məlumatda bildirir ki, Birləşmiş Millətlər Təşkilatı (BMT) və digər qurumlar vəziyyətdən çox narahatdır. Qlobal qida təchizatı və logistika şirkətləri hesab edirlər ki, enerji daşıyıcıları, gübrə və digər malların bazar tədarükünün pozulması nəticəsində qida məhsullarının qiymət indeksi aprel ayında mart ayı ilə müqayisədə 1,6 faiz artıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bölgədə tanker trafikinə təxminən 90 faiz azalma qeydə alındığını bildirərək bunun qlobal ərzaq təhlükəsizliyi üçün "sistematik şok" yaratdığı barədə xəbərdarlıq edib. FAO-nun baş iqtisadçısı Maksimo Toreronun sözlərinə görə, enerji təchizatındakı daralma və logistik blokada gübrə zavodlarını bir-bir istehsalı dayandırmağa məcbur edir, sürətlə artan xərclər isə dünya üzrə yeni və daha sərt ərzaq inflyasiyası dalğasını gücləndirir. Hətta münaqişə başa çatsa belə, bazarın sabitləşməsi üçün 3-4 ay vaxt tələb olunacaq

**Dünyada gübrə qıtlığının yaşanması ərzaq məhsullarının istehsalını azaldır**

Avropada isə vəziyyət ikiqat pisləşir, neft və qaz qiymətlərinin artması fonunda regiondakı zavodlar bahalı yanacaq şərtləri altında azotlu gübrə istehsalını dayandırmağa məcbur olur. Çünki gübrə və digər dərmanların istehsal xərclərinin 80-90 faizi birbaşa təbii qazla bağlıdır. Bu isə son nəticədə fermerlərin gübrə qiymətinin yüksəlməsi ilə üzləşdirir və onları azotdan daha az istifadə etmək məcburiyyətində qalırlar.

ABŞ-da da gübrə ehtiyatlarında tükənmə riskləri meydana çıxmaqdadır. Bu ölkədə mövsümi istehlak tələbatının 25 faiz aşağı düşməsi fermerləri çətin maliyyə qərarı qarşısında qoyur. İstehsalçılar ya yüksək qiymətlərlə riskli tədarükə razılaşmalı, ya da gübrə istifadəsini azaltmaqla məhsuldarlıq itkisini qəbul etməlidir. Hər iki ssenari superölkənin ərzaq istehsalı və qiymət tarazlığına təzyiq yaradır.



**Qlobal ərzaq bahalaşması dərinləşir**

Göründüyü kimi vəziyyət yüksək istehsal xərcləri ilə üzləşən qlobal kənd təsərrüfatı sektorunu idarəolunmaz maliyyə yükü yaradır. Bu isə məhsuldarlığın azalmasına və ərzaq qiymətlərinin zəncirvari şəkildə artmasına səbəb olur. Bahalaşma dalğası ən çox bitki yağları, ət və taxılın qiymətlərini artırmaqdadır. Bitki yağlarının indeksi mart ayından bəri 5,9 faiz artaraq 2022-ci ilin iyul ayında qeydə alınmış ən yüksək göstəricini də ötüb. Ətin qiymətləri isə 1,2 faiz artıb. Növbəti rübün sonunda bu rəqəmin 2,5 faizə çatacağı ehtimal olunur. Bu gedişlə ərzaq qiymətləri indeksinin ilin sonuna qədər daha da artacağı istisna deyil.

Dünya üzrə ən iri istehsalçılar və fermer assosiasiyaları əkin sahələrinin və məhsuldarlığın azalması barədə xəbərdarlıq edirlər. Cari ildə qlobal buğda istehsalının təxminən 2 faiz azalaraq 817 milyon ton təşkil edəcəyi proqnozlaşdırılır. Düyü, buğda, qarğıdalı və soya kimi əsas məhsullarda mümkün məhsuldarlıq azalması idxaldan asılı ölkələrdə yerli ərzaq böhranlarını gücləndirir. Onlar qlobal ərzaq məhsulları təminatında kəsirin yaranacağını fərz edərək 2026-cı ilin noyabr ayına qədər ərzaq qiymətlərinin 50 faiz artacağından narahatdırlar.

Mövcud vəziyyət dünyada inflyasiyanın da kəskin artımlarına yol açmaqdadır. "Standard & Poor's" ("S&P Global Ratings") beynəlxalq reytinq agentliyi açıqladığı yeni sənəddə dünya üzrə orta illik inflyasiyanın 3-4 faiz səviyyəsində artacağını proqnozlaşdırır. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarında da inflyasiyanın yüksələcəyinə dair ehtimallar yer alır. BVF hesab edir ki, mövcud makroiqtisadi şərait və bazar təhlilləri inflyasiyanın artırıcı istiqamətdə dəyişdiyini göstərir.

**Azərbaycan yerli gübrə istehsalını artırır, idxala vergi güzəşti tətbiq edir**

Azərbaycanda gübrə təminatı həm yerli istehsal, həm də idxal hesabına həyata keçirilir. Ölkəmizdə fəaliyyət göstərən Karbamid zavodu mineral gübrə ehtiyatının əhəmiyyətli hissəsini təmin edir. Zavodda azot, fosfor, kalium, mürəkkəb və yarpaq gübrələri, eləcə də üzvi mineral gübrələr daxil olmaqla geniş çeşiddə gübrə təminatı mövcuddur. Bu isə idxaldan asılılığı xeyli azaldır və yerli fermerlərin dayanıqlı təminatında mühüm rol oynayır. Gübrələrdən istifadə kənd təsərrüfatının dinamik inkişafı və məhsuldarlığın artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Hökumət, eyni zamanda, tələbatın tam təmin edilməsində idxal faktorunu nəzərə alaraq, xaricdən gətirilən mineral gübrələrin idxalına vergi güzəştləri tətbiq edib. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrəyə əlçatanlığının artırılması, əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təminatının gücləndirilməsi, tullantı kimi ətraf mühitə atılan xammalın emala cəlb edilməsi məqsədilə orqanomineral gübrələrin idxalı və satışı 2026-cı ildən etibarən ƏDV-dən azad olunub. Bu, kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərinin azalmasında mühüm rol oynamaqdadır.

**Mərkəzi Bank inflyasiyanı nəzarətdə saxlayır**

Azərbaycan hökuməti qlobal bazar ssenarilərini diqqətlə izləyərək idxal inflyasiyanın artmasının qarşısını almaq üçün də müxtəlif qabaqlayıcı addımlar atmaqdadır. Mərkəzi Bank (MB) qlobal geosiyasi gərginliklərin yaratdığı riskləri, qlobal maliyyə konyunkturu və daxili makroiqtisadi mühiti diqqətdə saxlayaraq inflyasiyanın hədəf daxilində qalması üçün zəruri tədbirlər görür. Bir neçə gün əvvəl MB tərəfindən açıqlanan pul siyasəti bəyanatından da göründüyü kimi 2026-cı ilin ikinci rübü və ümumilikdə il ərzində müxtəlif ssenarilər üzrə qiymətləndirmələr aparılacaq və antiinflyasiya xarakterli pul siyasəti yürüdüləcək. Əsas məqsəd inflyasiyanın birrəqəmli həddə saxlamaqdır.

*E.CƏFƏRLİ*

# Ermənistan müstəqil olmağa qadir deyil

Azərbayanın formalaşdırdığı yeni reallıqlar Cənubi Qafqaz üçün yeni bir mərhələ, yeni bir gələcək vəd edir. Bu gələcək isə olduqca mühüm dividendlərlə müşayiət olunacaq. Reallıq göz önündədir - cəmisi 10 aydır hökm sürən sülh şəraiti bölgədə mühüm dəyişikliklərə yol açıb.

## İrəvan Fransanın oyunlarının qurbanına çevriləcək

Azərbaycan öz ərazisindən keçməklə Ermənistana malların daşınmasına icazə verib, iki ölkə arasında ixrac-idxal münasibətləri yaranıb. Davamlı sülh isə bu imkanları daha da genişləndirəcək. Qafqaz regionunda davamlı sülh və sabitliyin formalaşması üçün isə dövlətlərin həqiqi müstəqil siyasət yürütməsi əsas şərtlərdən biridir. Tarix göstərir ki, Ermənistan uzun illər boyu öz siyasi qərarlarını xarici güclərin təsiri altında formalaşdırıb və bu səbəbdən regionda etibarlı tərəfdaş obrazı yarada bilməyib. Vaxtilə Rusiyanın hərbi-siyasi təsir dairəsində fəaliyyət göstərən Ermənistan bu gün də başqa mərkəzlərin, xüsusilə Fransanın siyasi dəstəyinə arxalanaraq mövcudluğunu qorumağa çalışır. Bu isə ölkənin öz milli maraqlarına söykənən müstəqil strateji xətt formalaşdıra bilmədiyini göstərir.

## Ermənistan yenə də maraqların mübarizə meydanına çevrilir...

Son bir ildə baş verən proseslərə xronoloji ardıcıllıqla nəzər saldıqda, Azərbaycanın bölgəni yeni bir status qazanmağa səyləri aşkar şəkildə ortaya çıxır. Bakı Cənubi Qafqazı qlobal dünyanın aparıcı aktoruna çevirmək uğrunda mübarizə aparır. İmzalanacaq sülh Ermənistan üçün iqtisadi dividendlərlə yanaşı, həm də siyasi müstəqillik vəd edir. Təəssüfləndirici haldır ki, Ermənistan indiki halda yenidən "qoltuq" altını seçir - İrəvan Qərblə Rusiya arasında dərinləşən rəqabətin ucuz predmeti kimi çıxış edir. Ermənistan tarix boyu böyük güclərin təsiri altında yaşayıb - uzun illər Rusiyanın Cənubi Qafqazdakı əsas forpostu kimi çıxış edib. Onun təhlükəsizlik sistemi, iqtisadi infrastrukturu və siyasi qərarlarının mühüm hissəsi Moskvanın nəzarəti altında olub. Ermənistan hakimiyyətləri isə bu asılılığı "təhlükəsizlik zəmanəti" kimi təqdim etməyə çalışıblar. Lakin nəticədə ölkə həm iqtisadi inkişaf baxımından geri qalıb, həm də regionun əsas layihələrindən kənarda qalıb.

## Parisin kolonialist mövqeyi dəyişmir...

İndiki halda isə yenə də mənzərə dəyişmir - bu dəfə Fransa Ermənistan üçün yeni siyasi himayədar rolunda çıxış edir. İrəvan yenə də hansısa böyük gücün geosiyasi alətinə çevrilir. Sadəcə, əvvəlki forpostun adı Rusiya idisə, indi bu rolu Qərb və Fransa oynamağa çalışır. Fransa isə heç bir zaman səmimi şəkildə dəstək verən bir dövlət kimi çıxış etməyib - tarix sübut edir ki, Paris özünün neokolonialist siyasətini daim ön planda saxlayır. Özünü inkişaf etmiş "demokratik ölkə" sayan Fransada insan hüquq və azadlıqlarına münasibət, "müttəfiq" saydığı balaca dövlətlərlə əlaqələr fərqli standartlara əsaslanır. Bunun ən real təsdiqi bir neçə gün öncə BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğvi üzrə Komitəsinin Kanakidə (Yeni Kaledoniya) Kanak xalqının öz müqəddəratını təyinetmə hüququ və seçici korpusunun dəyişdirilməsi cəhdləri ilə bağlı Fransaya ünvanladığı xəbərdarlıqdır. Yeri gəlmişkən, Fransa neokolonializminin ifşasında mühüm yerə malik olan Bakı Təşəbbüs Qrupu bu xəbərdarlığı alqışlayıb və Fransadan komitənin çağırışlarına dərhal əməl etməyi tələb edib. Bu faktın özü də rəsmi Parisin neokolonialist siyasətə üstünlük verməklə bəşəri dəyərləri deqradasiyaya uğratdığının göstəricisidir.

## Özünü saxta qəhrəman kimi göstərənlər...

Fransa adını ötən dövrün tarixinə ancaq qanlı və qara hərflərlə yazdırıb - həyata keçirdiyi soyqırımları, insanların vəhşicəsinə qətlə yetirilməsi faktları, milyonlarla insanın kölələşdirilməsi kimi saysız-hesabsız məqamlar, müttəfiqlik adı altında sömürücüklə məşğul olmaq rəsmi Parisin tarixdən silə bilməyəcəyi üz qarasıdır. Bu siyasət yenə də davam edir - planlar və görüntü dəyişsə də, əsl məqsəd dəyişmir. Paris Ermənistanı da öz orbitinə daxil etməklə bu ölkədən də öz məqsədləri üçün istifadə etməyə çalışır. Paris Ermənistanı dəstəkləmək adı altında Cənubi Qafqazda sülhə mane olmağa cəhd göstərir. Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə də bildirib ki, nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər: "Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur".



## Ermənistan hansı yolu seçəcək?

Azərbaycan isə regionda yeni əməkdaşlıq və inkişaf modelini təklif edən tərəf kimi çıxış edir. Rəsmi Bakı hesab edir ki, uzunmüddətli sülh yalnız qarşılıqlı suverenliyin tanınması, sərhədlərin toxunulmazlığı və regional əməkdaşlıq əsasında mümkündür. Azərbaycanın irəli sürdüyü təşəbbüslər Ermənistan üçün də müstəqil və təhlükəsiz gələcək qurmaq imkanı yaradır. Lakin Ermənistan rəhbərliyi bu tarixi fürsəti qiymətləndirmək əvəzinə, yenidən xarici qüvvələrin siyasi himayəsinə sığınmağa üstünlük verir. Nəticədə, ölkə regionun inkişaf edən layihələrinin bir hissəsinə çevrilmək əvəzinə, böyük güclərin geosiyasi maraqları arasında forpost rolunda qalır.

Məhz bu səbəbdən Ermənistanın gələcək taleyi ilə bağlı əsas sual ortaya çıxır: ölkə nəhayət öz iradəsinə əsaslanan müstəqil siyasət seçəcək, yoxsa yenə də xarici təsir dairələrinin kölgəsində qalmağa davam edəcək?

*P.SADAYOĞLU*

# Yeni nəqliyyat modeli

## Metro, avtobus və taksi xidmətlərinin vahid xidmət zənciri qurulacaq

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti (QSC) “BakuBus” və “Bakı Taksi Xidməti” MMC-lərin bu quruma qoşulması formasında yenidən təşkil edilib. Məqsəd ictimai nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin qarşılıqlı inteqrasiyasının və fəaliyyətin əlaqələndirilməsinin gücləndirilməsi, habelə əhalinin şəhərdaxili hərəkətinin mobilliyinin daha keyfiyyətli göstərilməsini təmin etməkdir. Fərmana əsasən, “Bakı Metropoliteni” QSC metro nəqliyyatı ilə yanaşı, avtobus, tramvay, taksi sərnişindaşıma üzrə xidmətlər göstərilməsini, onların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsini, həmin xidmətlərin təşkili və gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini həyata keçirəcək. QSC, eyni zamanda, həmin sahələrdə yeni nəqliyyat infrastrukturu obyektlərinin, terminalların və digər qurğuların, eləcə də taksi və avtobuslara texniki xidmət göstərən texniki-təmir sahələrinin və stansiyalarının layihələndirilməsini və tikintisini, maddi-texniki bazanın gücləndirilməsini və müasirləşdirilməsini həyata keçirməklə, xidmətlərin qarşılıqlı inteqrasiyasını və vahid mərkəzdən idarə olunmasını təmin edəcək.

### İnkişaf etmiş şəhərlərin təcrübəsi tətbiq olunur

“Bakı Metropoliteni”nin “BakuBus” və “Bakı Taksi Xidməti”nin bazasında yenidən təşkili paytaxt Bakının ictimai nəqliyyat sektorunda keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər və struktur islahatları xüsusilə də, nəqliyyat infrastrukturunun modernləşməsi, xidmətin çoxçeşidliliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, paytaxt böyük meqapolis kimi daha da inkişaf edərək ictimai nəqliyyatdan istifadənin yeni tələbatlarını meydana çıxarır, bu kontekstdə çoxşəbəkəli xidmət infrastrukturunun yaradılması daha da aktuallaşır. Nəqliyyat şəhər xidmətlərinin əsas sahələrindən biri kimi ümumi mobilliyin təminatında mühüm yer tutur. Ona görə də, sərnişinlərə daha əlçatan və koordinasiyalı, rahat nəqliyyat landşaftı qurmaq vacib həyat şərtlərindən biridir.

“Bakı Metropoliteni” QSC-nin sədri Vüsal Aslanov mediaya müsahibəsində də bu məsələlərə toxunaraq qeyd edib ki, nəzərdə tutulan ssenariyə əsasən, sərnişinlər metro, avtobus, tramvay və digər nəqliyyat növlərini ayrı-ayrılıqda deyil, bir-birini tamamlayan vahid nəqliyyat şəbəkəsinin elementi kimi istifadə edəcəklər. Nəqliyyat növlərindən əldə olunan məlumatlar vahid mərkəzdə emal olunub, analiz ediləcək və data əsaslı qərarların verilməsinə xidmət edəcək. London, Paris, Berlin, Honkonq, Sinqapur kimi şəhərlərdə bu təcrübə artıq çoxdandır tətbiq olunur. Bu qərar da həmin istiqamətdə atılmış strateji bir addımdır.

### 5 istiqamət üzrə tramvay xətti çəkiləcək

Yeni nəqliyyat xidməti konseptinə əsasən, başlıca məqsəd metro, avtobus və taksi xidmətlərinin bir-birini təkrarlamasının qarşısını almaq, bir-birini tamamlamasını təmin etməkdir. Yəni, sərnişin metrodan çıxdıqda avtobus və ya taksi dayanacağına keçid etdikdə vahid bir xidmət zəncirinin davamını hiss etməlidir. Bu plan gələcəkdə vahid ödəniş sisteminin və hərəkət qrafiklərinin tətbiqinin daha da asanlaşdırılmasını nəzərdə tutur. Nəticədə sərnişinlər üçün nəqliyyat növləri arasında keçidləri daha rahat həyata keçirən mexanizm qurulacaq. Həftəlik, saatlıq, aylıq paketlərin tətbiqi sayəsində yeni ödəniş həllərinə keçid də təmin olunacaq.

Qeyd edək ki, ictimai nəqliyyatda mobilliyin artırılması “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan əsas hədəflər sırasında da yer alır. Prioritetlərə əsasən, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması, həmçinin fərdi mobil nəqliyyat vasitələrinin, nəqliyyat və piyada infrastrukturundan istifadənin müasir tələblərə cavab verən səviyyədə təmin edilməsi və nəqliyyatda rəqəmsal texnologiyaların tətbiqi prinsipləri nəzərdə tutulur.

Proqramda tramvay nəqliyyatı infrastrukturunun qurulması da mühüm hədəflərdən biridir. Bu məqsədlə tramvayın konseptual planı hazırlanır, ilkin olaraq Mehdiabad ərazisindən Bakı şəhərinin mərkəzinə alternativ bir neçə tramvay xəttinin çəkilməsi, gələcəkdə 5 fərqli istiqamət üzrə tramvayın olması planlaşdırılır. Eləcə də, əhalinin sıx məskunlaşdığı və kütləvi ictimai nəqliyyat həllinə çıxışı olmayan ərazilərə tramvayın çəkilməsi nəzərdə tutulur.




Vüsal Aslanovun sözlərinə görə, adıçəkilən Dövlət Proqramında “Bakı Metropoliteni”nə aid tapşırıqlar əsasən 3 qrupda təsnifləşdirilir. Bunlar mövcud infrastrukturun stabil işləməsinin təmin olunması, müasirləşdirilməsi və metro şəbəkəsinin genişləndirilməsidir. Həmin Aslanov” stansiyası istiqamətinə qədər olan boşluq doldurulacaq. Bu stansiyalar Ağ Şəhər, 8 Noyabr prospekti və Nargilə dairəsi kimi strateji nöqtələrdə yerləşəcək. “Bənövşəyi xətt” üzrə isə şəhər mərkəzində şaxələndirmə

### 2042-ci ilə qədər vaqon parkı tam yenilənəcək

tədbirlər planına uyğun olaraq paytaxtda 10 yeni metro stansiyasının inşası planlaşdırılır. Şərti adı “B4” olan stansiyanın cari ilin sonuna qədər istifadəyə verilməsi gözlənilir, digər 9 stansiya üçün bu il tender elan ediləcək və növbəti ildən tikinti işlərinə start veriləcək. “Yaşıl xətt” üzrə inkişaf əsasən şəhərin şərq hissəsini əhatə edəcək və 2030-cu ilə qədər dörd yeni stansiyanın - “Y-14”, “Y-15”, “Y-16”, “Y-17” - inşası ilə “Xətai” stansiyasından “Həzi yaratmaq məqsədilə 6 yeni stansiyanın - “B-4”dən “B-8”ə qədər tikilməsi nəzərdə tutulur. “B-5” (Nizami), “B6A” (Sahil) və “B7” (Xətai) stansiyaları mövcud xətlərlə kəsişərək qovşaq və keçid funksiyasını yerinə yetirəcək.

İnkişaf planına əsasən, metronun vaqon parkının yenilənməsi nəzərdə tutulur.

Hazırda metronun 381 vaqondan ibarət parkı var, onların 180-i müasir kondisioner sistemi ilə təchiz edilmiş arakeçidləri olan yeni nəsil vaqonlardır. Qalan vaqonlar üçüncü nəsildir; istismar müddəti bitməkdədir. Cari ilin sonuna qədər 36 vaqonun istismar müddəti bitəcək və yeniləri ilə əvəz olunacaq. Texniki göstəricilərinə əsasən, digər qatarlar isə 2042-ci ilə qədər mərhələli şəkildə tam istismarda çıxarılacaq və vaqon parkı tamamilə müasir vaqonlarla təmin olunacaq. Ümumilkdə, Dövlət Proqramı çərçivəsində 299 yeni vaqonun alınması nəzərdə tutulub.

### Rəqəmsal strategiya və “QR-kod” ödənişləri

Tədbirlər planına əsasən, qatarların idarə edən işarəvermə sistemi yenilənəcək, metro xətlərinin ayrılması mexanizmi qurulacaq, hər bir xətt ayrıca müstəqil işləyəcək və müstəqil depoları olacaq. Məsələn, xətlər ayrıldıqdan sonra “28 May” stansiyası yalnız “İçərişəhər” istiqamətinə gedən qatarlardan istifadə edən sərnişinlər tərəfindən istifadə olunacaq, “Dərnəgül” istiqamətinə gedən sərnişinlər isə “Cəfər Cabbarlı” stansiyasından istifadə edəcəklər. “Cəfər Cabbarlı” ilə “28 May”ı birləşdirən əlavə sərnişin tunelinin istifadəyə verilməsi isə xətlərin ayrılmasını daha da genişləndirəcək. Həmçinin “geri dönüş” sxemi əsasında intervallar azaldılacaq.

Metropolitenin rəqəmsal strategiyası hazırlanıb və təsdiq edilib. Strategiya iki əsas istiqaməti əhatə edir. Birincisi, əməliyyat səmərəliliyi: qatarların, eskalatorların və infrastrukturun texniki xidmətinin avtomatlaşdırılması, qabaqlayıcı tədbirlərin görülməsidir. İkincisi isə sərnişinlərə yönəlik həllərdir. Bu istiqamət üzrə pilot rejimində süni intellektlə sərnişin sıxlığının idarə edilməsi proqram təminatı üzərində işlənilir.

“Bakı Metropoliteni” QSC-nin sədri yeni mobil tətbiqin imkanlarından da danışıb. Bildirib ki, mobil tətbiq əsasında sərnişinlər “QR-kod” vasitəsilə ödəniş edə biləcəklər. Hansı stansiyadan hansı stansiyaya daha tez çatmaq, günün hansı vaxtı sıxlığın az və ya çox olduğunu qabaqcadan görmək, qatarın hansı vaqonunun nisbətən boş olduğunu əvvəlcədən bilmək imkanları olacaq. Ssenariyə əsasən, Bakı şəhərinin ictimai nəqliyyatında vahid mərkəzdən tənzimlənən paketlər üzrə ödəniş sisteminin qurulması da nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# İranın 5 şərti...

## Vaşinqton bu şərtləri qəbul edəcəkmi?

ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib. İran, ABŞ və onların müttəfiqləri aprelin 8-ə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb. Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.

### Tehranın şərtlərində nələr var?

ABŞ-ın sülh planında 14 təklif öz əksini tapırdı. Lakin Tehran da adekvat olaraq özünün şərtlərini irəli sürür. Bugünlərdə “Fars” xəbər agentliyinin yaydığı məlumata görə, İran hakimiyyəti Vaşinqton Tehranın irəli sürdüyü 5 şərti yerinə yetirməyincə, ABŞ ilə münaqişələrin həlli üzrə danışıqları bərpa etməyəcəyini bəyan edib. Məlumata görə, İran tərəfinin irəli sürdüyü şərtlərə Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dayandırılması, İrana qarşı tətbiq olunan sanksiyaların ləğvi, dondurulmuş İran vəsaitlərinin sərbəst buraxılması, müharibə nəticəsində dəyən ziyana görə kompensasiyanın ödənilməsi və İranın Hörmüz boğazı üzərində suveren hüquqlarının tanınması daxildir. Mənbənin sözlərinə görə, qeyd olunan şərtlər danışıqlar prosesinə qayıdış və tərəflər arasında minimum etimad mühitinin formalaşdırılması məqsədilə müəyyən edilib. Agentlik yazıb ki, İran tərəfi Pakistan vasitəsilə ABŞ-a çatdırıb ki, atəşkəs elan olunmasına baxmayaraq, Ərəbistan dənizi və Oman körfəzində dəniz blokadasının davam etdirilməsi Vaşinqtona olan etimadı daha da azaldır.



### Tramp İranı yenə hədələyib

Bu şərtlər fonunda ABŞ Prezidenti Donald Tramp İranla bağlı sərt bəyanatla çıxış edib. O, Çinə dövlət səfərinə yola düşməzdən əvvəl jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Tehran ya Vaşinqtonla razılaşma əldə edəcək, ya da ABŞ “başladığı işi tamamlayacaq”. “Onlar ya düzgün addım atacaqlar, ya da biz işi bitirəcəyik. Ya razılaşma olacaq, ya da onlar məhv ediləcəklər. Hər iki halda biz qalib gəlirik”, - deyə Ağ Ev rəhbəri söyləyib. Tramp, həmçinin İran ətrafındakı vəziyyətlə bağlı atəşkəs ehtimalına dair suala qəti cavab verməyib və qərarın sonradan nəzərdən keçiriləcəyini deyib.

O, İranın nüvə proqramı ilə bağlı mövqeyini təkrarlayaraq bildirib ki, İran heç vaxt nüvə silahına sahib olmayacaq: “Onların nüvə silahı olmayacaq. Bunu bilirlər və razılaşıblar. Amma sonra bunu açıq şəkildə təsdiqləməkdən imtina etdilər. Biz oyun oynamırıq”.

Tramp ABŞ-ın İranla dialoq prosesində əsas vasitəçi rolunu oynayan Pakistanı əvəz etməyi planlaşdırmadığını deyib. “Xeyr, onlar möhtəşəmdirlər. Pakistanlılar çox yaxşı iş görürlər. Feldmarşal və Pakistanın Baş naziri tamamilə möhtəşəm fəaliyyət göstərirlər”, - deyən Prezident qeyd edib ki, ABŞ yalnız “yaxşı və məqbul hesab edilən” şərtlər daxilində sülh razılaşmasını imzalamağa hazır olacaq. Onun sözlərinə görə, hazırkı mərhələdə vasitəçi dəyişdirilməsi gündəmdə deyil və Pakistan dialoq prosesində mühüm rolunu davam etdirir.

### İran yeraltı raket anbarlarının 90 faizini bərpa edib?

CNN kanalı isə məlumat verib ki, İsrail rəhbərliyi ABŞ Prezidenti Donald Trampın İranla əsas mübahisəli məsələləri həll etmədən razılığa gələ biləcəyindən narahatdır. Telekanal İsrail rəsmilərinə istinadla bildirib ki, “Trampın pis bir razılaşma əldə edəcəyi ilə bağlı real narahatlıq var”. Qeyd olunub ki, Tehranın nüvə proqramının qismən saxlanılmasını nəzərdə tutan, lakin ballistik raketlər və regional müttəfiqlərlə bağlı məsələləri əhatə etməyən mümkün razılaşma İsrail tərəfindən qəbuledilməz hesab olunur. İsrail rəsmilərinin sözlərinə görə, danışıqların uğursuzluğa düçar olması və ya uzanması halında eskalasiya ehtimalı real olaraq qalır.

“The New York Times” nəşri isə iddia edir ki, İran Hörmüz boğazı boyunca yerləşən 33 yeraltı raket bazasından 30-na yenidən əməliyyat çıxışı əldə edib. Nəşr bu barədə ABŞ kəşfiyyat məlumatlarına istinadən yazıb. Mənbələrin sözlərinə görə, İran yeraltı raket anbarları və buraxılış sistemlərinin təxminən 90 faizini, həmçinin mobil raket qurğularının və müharibədən əvvəlki arsenalının 70 faizini bərpa edib. Qeyd olunur ki, bu vəziyyət Hörmüz boğazından keçən ABŞ hərbi gəmiləri və neft tankerləri üçün təhlükə yarada bilər. Nəşr, həmçinin bildirir ki, yeni kəşfiyyat məlumatları ABŞ Prezidenti Donald Tramp administrasiyasının İranın hərbi imkanlarının zəifləldilməsi ilə bağlı açıqlamalarını tam təsdiqləmir.

*N.BAYRAMLI*

# Kiyev 13 ölkə ilə birgə koalisiya yaradır

## Koalisiya ballistik raketlərdən müdafiəni gücləndirməlidir

**Mayın 9-da Moskvada keçirilən hərbi paraddan sonra Rusiya-Ukrayna cəbhəsində hücumlar yenidən başlayıb. Rusiya Prezidenti Vladimir Putin paradla əlaqədar mayın 8-i və 9-da Ukrayna ilə atəşkəs barədə əmr vermişdi. Bu addım Ukrayna ilə koordinasiya edilmədən atılsa da, Kiyev atəşkəsə əməl edəcəyini bəyan etmişdi.**

### Atəşkəs qalıcı olmadı, qarşılıqlı hücumlar artıb

Lakin Ukraynanın təklifinə rəğmən, atəşkəs qalıcı olmayıb, Rusiya hərbi paradın keçirilməsindən sonra hücumlarını bərpa edib. Belə ki, Rusiya qoşunları Kiyev şəhərinə və vilayətinə dron zərbələri endirib. Kiyev bölgəsində uşaq bağçasına dronla zərbə endirilib, paytaxtdakı 16 mərtəbəli binaya isə PUA qalıqları düşüb və yanğın baş verib. Xəsarət alanlar var. Jitomir bölgəsində də hücum nəticəsində avtomobillərə, yaşayış binalarına və yardımçı tikililərə ziyan dəyib.

Dünən gecə Rusiya ordusu Çerniqov bölgəsinə də dron hücumu həyata keçirib. Bu barədə Çerniqov Regional Dövlət Administrasiyasının rəhbəri Vyaçeslav Çaus məlumat verib. Semenovkada dron zərbəsindən sonra bir ev yanıb. Koryukovski rayonunun Menska qəsəbəsində dron zərbələri yardımçı tikililərə ziyan vurub. Xarkov bölgəsində iki kənddə də hücumlar qeydə alınıb. Xarkov vilayətinin Dövlət Təcili Yardım Xidmətinin məlumatına görə, Kupyansk rayonunun Veliki Burluk kəndində düşmən dronu infrastruktur obyektinə zərbə endirib. Bir avtobus və bir yük maşını alovlanıb. Təcili yardım briqadaları yanğını söndürüb, insan tələfatı olmayıb. Xarkov rayonunun Bezruki kəndində bir evə dron zərbəsi endirilib. Bir yardımçı bina alovlanıb və yaşayış binasına ziyan dəyib. Yanğın söndürülüb və itki olmayıb. Bundan əlavə, Xarkovda pilotsuz uçuş aparatı evin damına zərbə endirib və bir sakini yaralayıb. Pavloqradda isə Rusiya ordusu yaşayış məntəqəsinə hücum edib. Doqquzmərtəbəli binaya və bir neçə avtomobilə ziyan dəyib, iki nəfər yaralanıb. Nəqliyyat infrastrukturuna da ziyan dəyib.

Rusiyanın Dnepropetrovsk vilayətinə hücumları nəticəsində isə 8 nəfər həlak olub, 11 sakin yaralanıb. Bu barədə regional hərbi administrasiyanın rəhbəri Aleksandr Qanja "Telegram" platformasında məlumat verib. Onun sözlərinə görə, ruslar bölgənin üç rayonuna təxminən 30 dəfə hücum ediblər. Nikopol rayonunda hücumlar Nikopol, Marqanets, Mirovsk, Pokrovsk və Krasnoqriqoryevski yaşayış məntəqələrini hədəf alıb. Bu ərazilərdə infrastruktur, şəxsi evlər və avtomobillərə ziyan dəyib. Hücumlar zamanı 3 nəfər yaralanıb, 16 yaşlı oğlan orta ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib, daha iki nəfər ambulator müalicə alır.

Sinelnikovski rayonunda ruslar Dubovikovska və Nikolayevska icmalarına hücum ediblər. Burada 20-dən çox evə ziyan dəyib, iki nəfər ölüb. Mayın 12-də rayona edilən hücum nəticəsində daha doqquz evə ziyan dəyib, dörd nəfər həlak olub, daha dörd sakin yaralanıb, onlardan üçü xəstəxanaya yerləşdirilib. Krivoy Roqda bir müəssisə, infrastruktur və qaz kəməri zədələnib. Burada iki nəfər ölüb, daha dörd nəfər yaralanıb.



### Moskva Kiyevin təklifini qəbul etməyib

Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyanın hücumlarının cavabsız qalmayacağını bildirib. O vurğulayıb: "Rusiya özü bir neçə gün davam edən atəşkəsi dayandırmağı seçdi. Gecə ərzində Ukraynaya 200-dən çox hücum dronu buraxıldı. Cəbhə xəttinə yenidən 80-dən çox hava bombası atıldı, 30-dan çox hava hücumu qeydə alındı. Dnepr, Jitomir, Xarkov və Nikolayev vilayətlərində hücum dronları vuruldu".

Ukraynanın xarici işlər naziri Sibiqa isə qeyd edib ki, Kiyev Moskvaya atəşkəsin 11 maydan sonra da uzadılmasını təklif edib: "Rusiyanın bu təklifi rədd etməsi onun üçün müvafiq nəticələrə səbəb olmalıdır. Ukraynanın təsirli, uzunmüddətli sanksiyaları və tərəfdaşlarımızın qətiyyətli addımları ilə daha güclü təzyiqə ehtiyac var".

Hücumlara cavab olaraq Ukrayna Müdafiə Qüvvələri müvəqqəti işğal olunmuş Donetsk, Luqansk və Zaporojye vilayətlərindəki Rusiya ordusunun komandanlıq, logistika və canlı qüvvə mərkəzlərinə zərbələr endirib. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatına görə, Donetsk vilayətinin müvəqqəti işğal olunmuş ərazisindəki Selydov yaxınlığında iki düşmən komandanlıq və müşahidə məntəqəsi və bir komandanlıq məntəqəsi vurulub. Bundan əlavə, Donetsk vilayətinin Pokrovsk yaxınlığında Rusiya ordusunun PUA-sı üçün komandanlıq məntəqəsinə zərbə endirilib. Ukrayna qüvvələri, həmçinin Zaporojye vilayətinin Novopoltavka şəhərindəki təchizat anbarına və Luqansk vilayətinin Rassvet şəhərindəki təmir bölməsinə zərbələr endirib. Digər hədəflərlə yanaşı, Donetsk bölgəsindəki strateji ərazi olan Donetskdə və Zaporojye bölgəsindəki strateji ərazi olan Oxrimovkada Rusiya ordusunun canlı qüvvəsinin cəmləşdiyi ərazilər də vurulub.

### Kiyev Avropadakı tərəfdaşlarına inanır

Belə bir şəraitdə Kiyev beynəlxalq tərəfdaşları ilə Rusiyanın hücumlarının qarşısını almaq üçün yeni variantlar üzərində işləyir. Belə ki, Ukrayna Avropa tərəfdaşları ilə birgə ballistik raketlərdən müdafiə üzrə koalisiya yaratmağa hazırlaşır. Ukrayna Prezidenti Volodimir Zelenski "Telegram" kanalında bildirib: "Avropalı tərəfdaşlarımıza təşəkkür etmək istəyirəm: milli təhlükəsizlik məsələləri üzrə müşavirlər səviyyəsində görüş keçirilib. Biz Avropada ballistik raketlərdən müdafiə sistemlərinin istehsalı mövzusunu tədricən irəli aparırıq və bununla bağlı koalisiya formalaşdırırıq. Bunu etməyə dəyər və hazırda biz nəticəyə həmişəkindən daha yaxınıq. Həmin görüşdə 13 ölkə və NATO Baş katibinin ofisi təmsil olunub. Bu, çox vacib təşəbbüsdür". Onun sözlərinə görə, Ukraynanın bu gün həm cəbhədə, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıqda mövqeyi güclüdür. O, Ukrayna və Avropanın müdafiəsinin bundan sonra da gücləndirilməsinin vacibliyini qeyd edib. "Ukrayna müharibədə tab gətirməli, müstəqilliyini qorumalı, insanların təhlükəsizliyini təmin etməlidir. Bu, mütləq olacaq", - Ukrayna lideri yekunlaşdırıb. Beləliklə, Kiyev hesab edir ki, tərəfdaşlarının dəstəyi ilə Rusiyanı sülhə məcbur etmək olar.

*N.BAYRAMLI*

# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun "Dirilmə" romanı haqqında

əvvəli ötən saylarımızda

Romanın yazıldığı illərdən hansınınsa belə bir gözəl yaz günündə, konkret desək, aprelin 28-i səhər saat doqquzda Moskva türmələrinin birində saxlanan üç dustağın işinə baxılır.

Üç müttəhimdən biri olan məhbus qadın Yekaterina Maslovanın həyat tarixçəsi sadədir. O, illər öncə kənddə bir cüt mülkədar bacının inəklərinə baxan ərsiz qaravaşın yoldan ötən sərgərdan qaraçıdan doğulmuş qızıdır. Üç yaşına çatanda Katyuşanın anası ölür, mülkədar xanımlar onu yanlarına götürüb qızları kimi böyüdürlər, ona təlim-tərbiyə verirlər. Qız xanımların evində yarı övlad, yarı da qulluqçu kimi bir status qazanır. Katyuşanın on altı yaşı olanda xanımların qardaşı oğlu tələbə Dmitri Nexlyudov yay tətilində bibilərinin yanına dincəlməyə gəlir. Katyuşa özü kimi saf, məsum, yaraşıqlı oğlana vurulur, ancaq knyaz balasına bəslədiyi sevgini dilinə gətirməyi ağlından belə keçirmir.

***

Üç il sonra həmin knyaz Nexlyudovun yolu yenidən kəndə düşür. Bu dəfə o, zabitdir, əvvəlki saflığından bir şey qalmayıb, pozğun ordu həyatı, qumar, qadınlar artıq onun üzündəki həya pərdəsini yırtıb. Bibilərinin yanına da hərbi səfər üstündə yolüstü dönüb, amma əlbəttə, Katyuşanı da unutmayıb. Qızı yenidən görəndən sonra Dmitri kənddə bir gecə yerinə dörd gün qalası olur, pasxa bayramını burada keçirir, üstəlik, qaldığı müddətdə Katyuşanı yoldan çıxarmağa da fürsət tapır:

"Üç il qabaq o, bir xeyirxah əməl üçün fədakarlığa hazır dürüst gənc idi; indisə yalnız aldığı həzzə vurğun, pozğun, incə-mincə bir eqoist olmuşdu. O zaman dünya ona sirli-soraqlı bir aləm kimi görünürdü, o, fərəhlə, coşquyla bu sirləri çözməyə çalışırdı; indisə bu həyatda hər şey sadə, aydın idi, hər şeyi şərait özü müəyyənləşdirirdi. O zaman təbiətlə, ondan əvvəl yaşamış, duyub-düşünmüş insanlarla - şairlər, filosoflarla ünsiyyət vacib idi; indisə cəmiyyətə qaynayıb-qarışmaq, dostlarıyla görüşüb-danışmaq ona daha lazımlı görünürdü. O zaman qadın onun nəzərində həm sirli, həm də gözəl, məhz elə sirli olduğuna görə gözəl bir varlıq idi; indisə doğmalarının, dostlarının arvadlarını çıxmaqla hər qadının ondan ötrü bəlli təyinatı vardı: bir dəfə daddığı həzzə dönə-dönə yetişmək üçün qadın onun əlində əvəzsiz alət idi. O zaman ona pul-para gərək deyildi, anası verdiyinin üçdə birini qaytara da bilərdi, hətta atasından qalma malikanəni kəndlilərə bağışlamaq da ürəyindən keçirdi; indisə anasının hər ay göndərdiyi min beş yüz rubl ona yetmirdi, buna görə aralarında söz-söhbət də olurdu. O zaman onun gerçək məni - mənəvi varlığıydı; indisə o, sağlam, gümrah heyvani vücudunu əsl mənliyi sayırdı".

Üç illik aradan sonra Katyuşanı yenidən görəndə Nexlyudov hiss eləyir ki, bu qızı yenə də sevməyə başlayıb, amma bu sevgi əvvəlki sevgidən deyil, nəsə başqa cür dadır. Ürəyinin dərinliyində Dmitri yubanmadan, tezliklə bibisigildən çıxıb getməli olduğunu anlayır, bilir ki, bu qalışı mütləq fəsad törədəcək, di gəl, ayağı sözünə baxmır, canındakı iki cahan, iki məni arasında var-gəl eləməkdən üzülüb heydən düşsə də, xatirələrinə hələ toz qondurmamış malikanədən qopa bilmir:

"Hər kəs kimi Nexlyudovun da varlığında iki insan yaşayırdı: biri - mənəvi insan özünə elə bir xoşbəxtlik axtarırdı ki, o xoşbəxtlikdən başqaları da pay götürə bilsin; o biri - heyvani insan xoşbəxtliyi yalnız özündən ötrü arzulayırdı, üstəlik, onun yolunda bütün dünyanın səadətini qurban verməyə hazır idi. Həmin dövrdə Peterburq həyatının, hərbçi güzəranının körüklədiyi çılğın eqoizmin sayəsində onun varlığına heyvani insan hakim kəsilmiş, mənəvi insanı tamam küncə qısnamışdı. Ancaq Katyuşanı görər-görməz ona bəslədiyi köhnə hissi təzələnəndə mənəvi insan içində baş qaldırıb öz haqqını istəməyə başladı. Beləcə, pasxa bayramından əvvəlki iki gündə Nexlyudovun varlığında şüurunun dərk eləmədiyi gərgin mübarizə getdi..."

***

Pasxa sona çatanda Nexlyudov Katyuşanın qoynuna yüz rubl dürtüb cəbhəyə yollanır. Bir müddət keçmiş Katyuşa boylu olduğundan duyuq düşür, xanımlarıyla qəsdən kobud davranır ki, onu qulluqdan qovsunlar. Şələ-küləsi qoltuğuna veriləndən sonra kəndə gedib çaxır satan, hadıxlıq eləyən dul arvadın daxmasına sığınır. Doğuş asan keçsə də, qarı Katyuşanın bədəninə mikrob salır, zavallı qara qızdırma içində ölümün astanasınacan gedir. Körpəni əyalət şəhərindəki uşaq evinə göndərirlər, onun da ora çatırışıyla ölməyi bir olur.

Əcəl döşəyindən qalxdığı gündən el-el dolaşan, əldən-ələ keçən Maslova vasitəçilərin yardımıyla Kitayeva soyadlı bədnam şöhrətli qadının saxladığı bordelə düşür. Burada yeddi il "namusla" xidmət göstərəndən sonra indi onu qalan iki dustaqla birlikdə iki ağır cinayətdə - oteldə görüşdüyü bir sərxoş müştərini həm zəhərləyib öldürməkdə, həm də qarət eləməkdə suçlayırlar.

Beləliklə, zalda andlı məhkəmə iclasçısı (münsif, prisyajnı) kimi iştirak eləyən knyaz Nexlyudov müttəhimlərdən birini qəfil tanıyır. Yuxarıda xatırlatdığımız hadisədən on il keçib, Dmitri İvanoviç kübar cəmiyyətdə tanınan varlı zadəgan, etibarlı mövqe sahibidir. Həmin sabah o, yuxudan kefikök oyanmışdı, kofesini içə-içə dövlətli, nüfuzlu Korçaginlərin evində keçirdiyi axşamı ləzzətlə xatırlayırdı. Kübar cəmiyyətdə danışıldığına görə, knyaz Nexlyudov yaxın zamanda bu məşhur ailənin gözəl qızıyla evlənəcək. Bir sözlə, bəyin işləri yağ kimi gedir. Bircə bu qanqaraldan məhkəmə olmayaydı, bu görüş baş verməyəydi: "Ola bilməz!" - Nexlyudovu heyrət necə qurudursa, yalnız bu iki kəlməni öz-özünə pıçıldamağa gücü çatır.

Bəli, bu, həmin qızdır, Katyuşadır. Üçüncü kursu bitirəndə Dmitri torpaq üzərində mülkiyyətlə bağlı kurs işi yazmaq üçün yayı bibilərinin yanında keçirmişdi. Qarasaç, qaragöz Katyuşanı da həmin yay tanımışdı. İki məsum gənc onda bir-birinə saf könüldən bənd olmuşdu. Rəsmən qaravaş sayılsa da, Katya evin qızı kimiydi, yaxşı tərbiyə görmüşdü, mütaliəsindən qalmazdı, Dostoyevskini, Turgenevi oxuyardı. Kəndə sonrakı dönüşündə isə... Yox, indi burasını xatırlamağa Nexlyudovun tabı qalmayıb.

***

Necə olmuşdu ki, o bu qızı indiyəcən xatırlamamışdı! Əslində, o sadəcə Katyuşanın surətini yaddaşına yaxın buraxmamışdı, çünki unutmağa çalışdığı xatirələr onu rahat, nizamlı, qurulu həyatından dərbədər salıb dincliyini poza bilər, özü haqqında uydurduğu təsəvvürü bir andaca dağıda bilərdi. İndi artıq obraz özü gəlib onun gözlərinin qabağını kəsdirib. Nexlyudov əvvəl-əvvəl vicdanına təslim olmaq istəmir, içini yeməyə başlayan peşmanlığın ötəri hal olduğunu düşünür. Əlbəttə, həyat özü bütün dərdlərə çarə qılır, bu qanayan yaraya da qarşıda onu gözləyən xoşbəxtliyin əliylə məlhəm sürtəcək...

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Qlobal çağırışlar qarşısında..

## Dövlət və cəmiyyət birliyi milli təhlükəsizliyin əsasıdır

İctimai və dövlət maraqlarının müdafiəsi hər bir cəmiyyətin möhkəmliyini, təhlükəsizliyini və gələcəyə inamını müəyyən edən vacib prinsiplərdən biri hesab olunur. Dövlət yalnız sərhədləri qorumaqla deyil, eyni zamanda vətəndaşlarının hüquqlarını, rifahını, milli-mənəvi dəyərlərini və sosial sabitliyini təmin etməklə güclü və dayanıqlı bir sistem qurmağa nail ola bilir. Müasir dövrdə informasiya axınının sürətlə artdığı, texnologiyanın həyatın bütün sahələrinə nüfuz etdiyi və qlobal çağırışların dövlətlərin qarşısında yeni məsuliyyətlər yaratdığı bir zamanda ictimai maraqların qorunması daha böyük əhəmiyyət qazanır.

Dövlət maraqlarının müdafiəsi dedikdə yalnız siyasi və iqtisadi təhlükəsizlik deyil, həm də milli kimliyin, mədəni irsin, dilin və mənəvi dəyərlərin qorunması nəzərdə tutulur. Çünki tarix boyu güclü dövlətlər məhz öz dəyərlərinə sahib çıxaraq, xalqın birliyini qoruyaraq və cəmiyyət daxilində həmrəylik yaradaraq inkişaf edib və gələcək nəsillərə sabit bir ölkə miras qoyublar.

**Geosiyasi təzyiqlər dövründə dövlət maraqlarının qorunması**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən politoloq Turan Rzayev bildirib ki, ictimai və dövlət maraqlarının müdafiəsi məsələsi müasir siyasi nəzəriyyədə və beynəlxalq münasibətlər sistemində dövlətin dayanıqlığını müəyyən edən əsas faktorlar sırasında xüsusi yer tutur. Onun sözlərinə görə, hər bir dövlətin gücü yalnız iqtisadi potensial və hərbi imkanlar ilə ölçülmür, eyni zamanda cəmiyyət daxilində mövcud olan sosial sabitlik, vətəndaş həmrəyliyi, milli identiklik və dövlət institutlarına olan ictimai etimad səviyyəsi ilə birbaşa bağlı olur: “Dövlət maraqları anlayışı sadəcə hakimiyyətin qorunması və ya idarəetmə mexanizmlərinin saxlanılması mənasını daşımır, əksinə dövlətin suverenliyinin, milli təhlükəsizliyinin, iqtisadi müstəqilliyinin, informasiya təhlükəsizliyinin və geosiyasi mövqeyinin qorunması kimi strateji istiqamətləri özündə birləşdirir. Çünki qlobal rəqabətin sərtləşdiyi, informasiya manipulyasiyalarının artdığı və beynəlxalq münasibətlərdə güc balansının sürətlə dəyişdiyi bir dövrdə dövlətlər yalnız çevik siyasət və güclü ictimai dəstək sayəsində öz maraqlarını müdafiə edə bilirlər”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**

**İctimai və dövlət maraqları arasında balans**

Politoloq qeyd edib ki, ictimai maraqların müdafiəsi daha mürəkkəb və çoxşaxəli bir anlayışdır: “Burada əsas məqsəd cəmiyyət daxilində sosial ədalətin təmin olunması, insan hüquq və azadlıqlarının qorunması, vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi, təhsil və səhiyyə sisteminin inkişaf etdirilməsi, həmçinin insanların təhlükəsiz və sabit mühitdə yaşamaq hüququnun təmin edilməsidir. Məhz bu səbəbdən güclü dövlət modeli yalnız sərt idarəetmə ilə deyil, eyni zamanda xalqın maraqlarını nəzərə alan çevik sosial siyasətlə formalaşır.

Müasir siyasi proseslər göstərir ki, ictimai maraqlarla dövlət maraqları arasında balansın qorunması dövlət idarəçiliyinin ən çətin və strateji məsələlərindən biridir. Bəzi hallarda populizm dövlətin uzunmüddətli maraqlarına zərbə vurduğu kimi, həddindən artıq sərt dövlətçilik modeli də cəmiyyət daxilində narazılıqlar yarada və sosial harmoniyanı poza bilir. Buna görə də peşəkar siyasi idarəçilik ilk növbədə xalqın gözləntiləri ilə dövlətin strateji məqsədləri arasında rasional uyğunluq yaratmağa çalışır”.

**İnsanlarda milli məsuliyyət hissi formalaşdıqda...**

Politoloqun fikrincə, xüsusilə regional münaqişələrin, iqtisadi böhranların, enerji savaşlarının və informasiya müharibələrinin artdığı indiki mərhələdə dövlət maraqlarının qorunması artıq yalnız diplomatik və hərbi məsələ hesab edilmir: “İnformasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, milli ideoloji dayanıqlıq və vətəndaşların dövlətə bağlılığı da milli təhlükəsizlik anlayışının ayrılmaz hissəsinə çevrilib. Bu amillər zəiflədikdə xarici təsirlərin cəmiyyət daxilində parçalanma yaratmaq imkanları daha da genişlənir.

Güclü dövlətin əsas dayağı vətəndaşların dövlətə kor-koranə deyil, şüurlu şəkildə bağlı olmasıdır. İnsanlarda milli məsuliyyət hissi formalaşdıqda, cəmiyyət qanunun aliliyinə hörmət etdikdə və dövlət institutlarına etimad yüksək olduqda həm daxili sabitlik möhkəmlənir, həm də xarici təzyiqlərə qarşı müqavimət qabiliyyəti artır. Nəticədə, dövlət daha çevik, daha nüfuzlu və daha dayanıqlı siyasi aktora çevrilir.

Bu baxımdan, ictimai və dövlət maraqlarının müdafiəsi yalnız hüquqi və siyasi məsələ deyil, həm də milli şüur, strateji düşüncə və gələcək nəsillərin təhlükəsiz inkişafı ilə bağlı fundamental məsələdir”.

*Yeganə BAYRAMOVA*

## İtmişdir

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu Əliyev Təbriz Əfqan oğluna məxsus DSX N° 0017038 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.




# Rəqslərdə tarix, musiqidə yaddaş: “Suvar”ın sənət dili

Azərbaycanın zəngin musiqi və rəqs ənənələri içərisində özünəməxsus yeri olan “Suvar” mahnı və rəqs ansamblı uzun illərdir milli mədəniyyətimizin təbliğində mühüm rol oynayır. Xüsusilə musiqi və rəqs mədəniyyətimizin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində göstərdiyi fəaliyyət bu kollektivi seçilən sənət ocaqlarından birinə çevirib. Ansamblın fəaliyyəti, keçdiyi yaradıcılıq yolu və qarşıdan gələn yubiley konserti ilə bağlı kollektivin rəhbəri Zavir Nəcəfov ilə söhbətləşdik.

**- “Suvar” ansamblının yaranma tarixi və ideyası necə formalaşıb?**

- “Suvar” mahnı və rəqs ansamblının əsası 1996-cı ilin iyun ayında Bakı şəhərində şair-bəstəkar Sədaqət Kərimova tərəfindən qoyulub. Həmin dövrdə milli folklor nümunələrinin qorunmasına ciddi ehtiyac duyulurdu və ansamblın yaranması məhz bu zərurətdən irəli gəldi. Kollektivin əsas məqsədi ləzgi xalq mahnılarını, rəqslərini, milli geyimlərini və səhnə mədəniyyətini yaşatmaq və təbliğ etmək idi. İlk konsertimiz 1997-ci ildə Bakı şəhərində Gənc Tamaşaçılar Teatrında baş tutdu və bu çıxış kollektiv üçün uğurlu başlanğıc oldu. Zaman keçdikcə ansambl repertuarını genişləndirərək peşəkar səviyyədə fəaliyyətini davam etdirdi.

**- Ansambla rəhbərlik etməyə necə qərar verdiniz?**

- Uşaqlıqdan musiqiyə böyük marağım olub. Xüsusilə ritm alətlərinə, nağaraya olan sevgim məni bu sahədə təhsil almağa yönəltdi. Uzun illər “Suvar” ansamblının üzvü kimi fəaliyyət göstərmiş, kollektivin inkişaf mərhələlərinin birbaşa şahidi olmuşam. Bu müddətdə həm səhnə təcrübəsi qazandım, həm də yaradıcılıq proseslərini dərindən öyrəndim. Sədaqət xanımın mənə rəhbərlik təklif etməsi həm böyük məsuliyyət, həm də etimad idi. Mən də bu etimadı doğrultmaq üçün bu vəzifəni qəbul etdim.

**- Repertuar seçimi zamanı hansı meyarlara üstünlük verirsiniz?**

- Repertuar seçimi fəaliyyətimizin ən vacib hissələrindən biridir. Çalışırıq ki, hər bir ifa milli köklərə söykənsin və orijinallığını qorusun. Folklorun zənginliyini olduğu kimi təqdim etmək əsas prinsiplərimizdəndir. Bununla yanaşı, səhnə quruluşu, musiqi tərtibatı və rəqs kompozisiyalarının estetikası da diqqət mərkəzində saxlanılır. Müasir tamaşaçı zövqünü nəzərə alaraq müəyyən yeniliklər etsək də, milli ruhdan heç vaxt uzaqlaşmırıq. Hər bir çıxış həm maarifləndirici, həm də estetik baxımdan dolğun olmalıdır.

**- “Suvar”ı digər kollektivlərdən fərqləndirən əsas xüsusiyyət nədir?**

- “Suvar”ın əsas fərqi köklərinə sadiq qalmasıdır. 30 ilə yaxın fasiləsiz fəaliyyət göstərmək hər kollektivə nəsib olmur. Biz yalnız səhnə fəaliyyəti ilə kifayətlənməmiş, eyni zamanda gənc nəslin bu sənətə cəlb olunmasına da xüsusi diqqət ayırmışıq. Ansambl həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə Azərbaycan mədəniyyətini layiqincə təmsil edib. Konsertlərimizin anşlaqla keçməsi isə tamaşaçı sevgisinin və etimadının göstəricisidir.

**- Bu günə qədər ən yaddaqalan çıxışınız hansıdır?**

- Çox sayda unudulmaz çıxışımız olub. Onlardan biri Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən beynəlxalq musiqi festivalındakı çıxışımızdır. Həmin tədbirdə Azərbaycan mədəniyyətini təmsil etmək bizim üçün böyük qürur idi. Tamaşaçıların marağı və alqışları kollektiv üçün böyük motivasiya oldu. Bu tədbirlər beynəlxalq aləmdə tanınmamıza da ciddi töhfə verir.

**- Xarici çıxışlarda tamaşaçı reaksiyası necə olur?**

- Xarici ölkələrdə çıxışlarımız hər zaman böyük maraqla qarşılanır. Ləzgi rəqslərinin enerjisi və musiqimizin ritmi tamaşaçılarda xüsusi təəssürat yaradır. Çox vaxt çıxışdan sonra tamaşaçılar bizimlə ünsiyyət qurmaq, milli musiqimiz haqqında daha çox məlumat almaq istəyirlər. Bu da göstərir ki, mədəniyyət dili sərhəd tanımır.

**- 2009-cu ildə TRT-də yayımlanan sənədli film barədə nə deyə bilərsiniz?**

- 2009-cu ildə Türkiyənin TRT kanalının dəvəti ilə çıxış etdik. Bu çıxış əsasında ansambl haqqında 1 saatlıq sənədli film hazırlandı və yayımlandı. Layihə “Suvar” ansamblının beynəlxalq miqyasda tanıdılması baxımından olduqca əhəmiyyətli idi.

**- 30 may tarixində keçiriləcək yubiley konsertinə hazırlıq necə gedir?**

- Hazırda kollektiv bu möhtəşəm tədbirə ciddi şəkildə hazırlaşır. Heydər Əliyev Sarayında keçiriləcək yubiley konserti bizim üçün xüsusi əhəmiyyət daşıyır. Konsertdə illər ərzində formalaşmış ən yaxşı rəqs nömrələri və musiqi kompozisiyaları təqdim olunacaq. Eyni zamanda yeni səhnə quruluşları və sürpriz çıxışlar da planlaşdırılır. Məqsədimiz tamaşaçılara həm keçmişimizi, həm də bu günümüzü dolğun şəkildə təqdim etməkdir.

**- Gələcək planlarınız nələrdir?**

- Gələcəkdə ansamblın fəaliyyətini daha da genişləndirmək, beynəlxalq layihələrdə iştirak etmək və gənc istedadları üzə çıxarmaq əsas hədəflərimizdəndir. Yeni proqramlarla həm ölkə daxilində, həm də dünya səhnələrində çıxışlarımızı davam etdirmək niyyətindəyik. Arzumuz “Suvar” adının uzun illər milli mədəniyyətimizin simvollarından biri kimi yaşamasıdır.

***Söhbətləşdi: Havar Şəfiyeva***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5330**
**Sifariş: 635**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova